## I Giriş

Coğrafiya elminin predmeti, vəzifələri və sahələri. İqtsadi və fiziki coğrafiya elmləri sistemi. Coğrafiya elminin digər elmlərlə əlaqəsi, insanların həyat fəaliyyətində coğrafiya elminin rolu. Yer kürəsi haqqında formalaşan coğrafi biliklərin inkişaf mərhələləri. Yer kürəsində mövcud olan coğrafi obyektlərin tədqiqat tarixi, coğrafi kəşflər nəticəsidə əldə olunan biliklərin təsnifatı. Azərbaycanda coğrafiya elminin inkişafı və Azərbaycanı öyrənən tədqiqatçılar. Coğrafiyada yeni biliklərin toplanma üsulları. Coğrafiyanın yeni sahələri və tədqiqat üsulları.

## II Yer səthinin təsviri və təsvr edilmə üsulları

Kartoqrafik təsvirlər haqqında ümumi anlayış və bu təsvirlərin əhəmiyyəti. Kartoqrafik təsvirlərin təhlili. Planaalma. Miqyas (baş və xüsusi), sahələrin və məsafələrin hesablanması. Şərti işarələr. Üfüqün cəhətləri və azimut. Nisbi və mütləq hündürlük, horizontallar. Coğrafi tədqiqat üsulları. Yerin forması və ölçüləri, qlobus. Paralel və meridianlar, coğrafi koordinatlar. Qütb ulduzu və onun coğrafi enliklərə görə görünmə bucağı. Kartoqrafik proyeksiyalar, təhriflər və onun növləri. Xəritələrin təsvir üsulları.

Xəritələrin məzmununa, miqyasına və ərazi əhatə etməsinə görə qruplaşdırılması. Topoqrafik xəritələr. Coğrafiya informasiya sistеməri (CİS). Kartoqrafik təsvirlərin müqayisəsi. Mövzulara uyğun müxtəlif tipli çalışmalar.

## III Yer səma cismidir

Kainat və Günəş sistemi. Yerin planet kimi formalaşması.

Səma cisimləri (ulduz, planet, peyk, asteroid, komet, meteorit) və onların yaranması, inkişafı haqında olan nəzəriyyələr və fərziyyələr. Günəş və Ay kimi səma cisimlərinə görə Yer kürəsinin mövqeyi. Yer maqnetizimi. Yer kürəsinin xəyali oxu və Günəş ətrafında hərəkəti, bu hərəkətlərin coğrafi nəticələri. Yer kürəsinin orbit müstəvisinə meyilliliyi. Coğrafi qütblər və maqnit qütbləri. Saat qurşaqları, yerli vaxt və qurşaq vaxtı. Yer səthinə günəş şüalarının düşmə bucağı, kölgənin uzunluğu, relyef səthinin meyilliliyinin həmin səthə günəş şüalarınn düşmə bucağına olan təsiri. İşıqlanma qurşaqları. Qütb gecə və gündüzləri. Mövzu ilə bağlı çalışmalar.

## IV Yerin formalaşması, inkişaf mərhələləri və daxili quruluşu

Yerin planetar və geoloji inkişaf mərhələləri. Geoxronoloji cədvəl, Yerin nisbi və mütləq yaşı. Yerin daxili quruluşu haqqında ümumi məlumat. Geotermik pillə və qradiyent. Yer qabığı və onun mənşəyi. Yer qabığını təşkil edən süxurlar. Litosfer. İlk okean və ilk quru sahələri. Endogen (daxili) və ekzogen (xarici) proseslər. Tektonik hərəkətlər nəticəsində litosfer tavalarının formalaşması, hərəkəti və onların coğrafi nəticələri. Yer kürəsinin seysmikliyi və seysmik zonalar, izoseystlər. Qədim və müasir geosinklinallar. Qədim geosinklinalların platformaya çevrilmə mərhələləri. Geoloji dövrlər ərzində baş vermiş dağəmələgəlmə mərhələləri. Vulkanlar, zəlzələlər və qeyzerlər. Yer kürəsində yerləşən əsas

vulkanlar, qeyzerlər, mineral və termal sular. Yer kürəsində yayılmış filiz, qeyri-filiz, yanacaq mənşəli faydalı qazıntılar və onların yerləşdiyi yataqlar. Faydalı qazıntıların şərti işarələri.

Azərbaycan Respublikasının geoloji quruluşu, baş verən tektonik və seysmik proseslər, vulkanlar (palçıq və maqmatik). Faydalı qazıntılar və onların yerləşdiyi yataqlar, mineral və termal sular. Mövzu ilə bağlı çalışmalar.

## V Yer səthinin relyefi

Endogen (daxili) və ekzogen (xaric) qüvvələrin təsiri ilə əmələ gələn relyef formaları. Morfostruktur və morfoskluptur anlayışı. Ölçüsünə və digər xüsusiyyıtlərinə görə relyef formalarının təsnifatı. Quruda və okeanda dağların və düzənliklərin morfoloji quruluşuna, hündürlüyünə, mənşəyinə və yaşına görə qruplaşdırılması. Yer səthində relyef vahidlərinin paylanması. Azərbaycan Respublikasının relyef formaları. Dağlar, düzənliklər, relyef vahidləri. Böyük Qafqaz, Kiçik Qafqaz, Naxçıvan, Talış dağları, Kür çökəkliyi və Arazboyu düzənliklər.

## VI Atmosfer

Atmosferin yaranması, formalaşması, tərkibi, quruluşu və əhəmiyyəti. Günəş radiasiyası və onun növləri (düz, səpələnən), udulan və əks olunan radiasiya, albedo anlayışı. Yer kürəsində günəş radiasiyasının üfüqi və şaquli paylanması. Azərbaycan Respublikasının ərazisində günəş radiasiyasının üfüqi və şaquli paylanması. Günəşli saatların miqdarının ölkə üzrə paylanması. Havanın temperaturu, temperaturun qeydə alınma prosesi, qeydə alan cihaz və şkalalar. Orta sutkalıq, aylıq, illik və çoxillik temperaturlar.

Temperatur amplitudu anlayışı. Yer kürəsinin mütləq maksimum və minimum temperaturları. Temperaturun üfüqi və şaquli dəyişməsi (aerotermik pillə), izotermlər və istilik qurşaqları. Fəal temperaturlar cəmi və onların aqroiqlimin formalaşmasında rolu.

Azərbaycan ərazisində temperaturun üfüqi və şaquli dəyişməsi.

Atmosfer təzyiqi, normal atmosfer təzyiqi, izobarlar, hündürlükdən aslı olaraq təzyiqin dəyişməsi (aerobarik pillə). Termik və dinamik təyziq qurşaqları. İzobarlar. Daimi təzyiq qurşaqları. Təzyiq ölçən cihazlar. Atmosferin ümumi sirkuliyasiyası. Hava kütləməri və onların tipləri. Küləklər və onların yaranması, əsas növləri. Müddətinə, temperaturuna və rütubətliliyinə görə küləklərin növləri. Külək gülü, Bofort şkalası və külək torbası. Qapalı təzyiq sahələri (siklon, antisiklon). Azərbaycan Respublikası ərazisinə daxil olan hava kütlələri və yerli küləklər.

Atmosferdə maye, buxar və qaz halında mövcud olan su kütləsi. Mütləq və nisbi rütubətlilik. Temperaturdan aslı olaraq havanın su buxarı il doyma həddi. Buxarlanma qabiliyyəti, buxarlanma və yağıntı arasındakı fərq. Rütubətlənmə əmsalı. Buludlar və onların növləri. Havadan və buluddan çökən yağıntılar. Mənşəyinə və formasına görə yağıntıların növləri. Yağış ölçən alətlər, izogiyet və izoqamin. Yağıntıların üfüqi və şaquli paylanması, maksimum və minimum yağıntı düşən məntəqələr.

Azərbaycan Respublikası ərazisində yağıntıların paylanma xüsusiyyətləri.

İqlim əmələ gətirən amillər, əsas və keçid iqlim qurşaqları, iqlim vilayətləri. Azərbaycan Respublikasının yerləşdiyi iqlim qurşağı və iqlim tipləri. Hava şəritinin qiymətləndirilməsi, hava poroqnozu, qlobal iqlim dəyişiklikləri və bu prosesin insanların həyat fəaliyyətinə təsiri. Atmosferin ekologiyası, atmosferin mühafizəsi. Mövzularla əlaqəli çalışma həlləri.

## VII Hidrosfer

Hidrosferin yaranması, formalaşması və müasir vəziyyəti. Təbiətdə suyun mənşəyi. Təbiətdə suyun təzələnməsi, yəni suyun kiçik və böyük dövranı, suyun əhəmiyyəti. Təbiətdə suyun həcminə görə təsnifatı. Dünya okeanı, ilk okean və müasir okeanlar. Dünya okeanının hissələri: okeanlar, dənizlər, körfəzlər, boğazlar. Dünya okeanında quru hissələri: materiklər, adalar, yarımadalar, arxipelaqlar, bərzəxlər. Okean dərinliklərinin ölçülməsi, lot, exolot, izobatlar.

Okean suyunun fiziki və kimyəvi xüsusiyyətləri. Okean sularının temperaturu, duzluluğu, şəffaflığı və bunların üfüqi və şaquli istiqamətdə dəyişməsi prosesi, izoqalinlər. Su kütlələri. Okeanda suyun hərəkəti. Külək dalğası, sunami, qabarma və çəkilmə. Okean cərəyanları, onları formalaşdıran əsas səbəblər və materiklərin iqliminə, təbii şəraitinə təsiri. Okeanlarda yaşayan canlılar aləmi. Okean sularında və oken dibindəki süxürlarda mövcud olan təbii sərvətlər. Dünya okeanından istifadə və onun çirklənməsi problemləri.

Quru suları və onların növləri. Çay eroziyası (dib və yan eroziya). Çay və onun dərəsinin elementləri. Düzənlik və dağ çayları. Çay axını. Çayların qida mənbələri, su rejimi. Hidroqraf. Çayın düşməsi, meyilliliyi, çay şəbəkəsinin sıxlığı, çayın su sərfi və illik axımı, eroziya bazisi. Çayların mənsəb formaları. Astana və şəlalələr. Yer kürəsinin iri çay sistemləri. Transsərhəd çaylar. Müvəqqəti axarlar.

Azərbaycanın çayları və onların ərazi üzrə paylanması, hidroloji xüsusiyyətlərinə görə qruplaşdırılması, qida mənbələri və rejim xüsusiyyətləri. Sel və daşqınlar, onların coğrafi yayılması. Sellərə qarşı mübarizə tədbirləri.

Göllər, onların çuxurları və su mübadiləsinə görə təsnifatı və əhəmiyyəti. Yer kürəsinin iri gölləri. Göl sularının fiziki, kimyəvi və bioloji xüsusiyyətləri. Azərbaycan Respublikasının gölləri.

Buzlaqlar. Dağ və örtük buzlaqları. Onların materiklər üzrə paylanması. Qar xətti, aysberqlər. Daimi donuşluq zonaları. Şelf buzlaqları. Bataqlıqlar və onların formalaşma səbəbləri.

Yeraltı sular və onların növləri. Azərbaycanın yeraltı suları, buzlaqları və onların coğrafi yayılması. Su anbarları və kanallar. Su ehtiyatlarından istifadə yolları. Xəzər dənizi və onun xüsusiyyətləri. Xəzər dənizinin problemləri və ekoloji vəziyyəti. Təhlükəli hidroloji hadisələr və onlarla mübarizə tədbirləri. Hidrosferin çirklənmə mənbələri və mühafizəsi. Su hövzələrinin dərinliyinə, suyun duzluluğuna, çayların düşməsinə, meyilliliyinə, su sərfinə, illik axımına və çay şəbəkəsinin sıxlığına aid çalışmalar.

## VIII Biosfer və coğrafi təbəqə

Biosferin yaranması və inkişafı, sərhədləri, üzvi aləmin formalaşması. Biosferin digər təbəqələrlə qarışılıqlı əlaqəsi. Torpaq və onu formalaşdıran amillər. Torpaqların mexaniki tərkibinə və quruluşuna görə qruplaşdırılması. Torpağın üfüqi və şaquli paylanması. Rənginə görə torpaqların təsnifatı. Azərbaycan ərazisində mövcud olan torpaq tipləri. Azərbaycanda dağ və düzənlik torpaqları.

Torpaqların eroziyası, şoranlaşması, səhralaşması, çirklənməsi və bu proseslərə qarşı aparılan mübarizə tədbirləri. Bedlendlər. Torpaqların keyfiyyətini artırmaq üçün görülən tədbirlər: meliorasiya, rekultivaiya, kollektor-drenaj şəbəkəsi və s.  Yer kürəsinin canlılar aləmi, flora və fauna. Azərbaycanın canlılar aləmi.

Coğrafi təbəqənin əsas inkişaf mərhələləri və qanunauyğunluqları. Coğrafi təbəqənin sərhədləri və onun daxili quruluşu. Təbii ərazi kompleksi, təbii zonalar və landşaft anlayışı. Zonal, azonal, intrazonal landşaftlar. Landşaft inversiyası anlayışı. Enlik və ya üfüqü zonallığı formalaşdıran amillər. Yüksəklik və dərinlik qurşaqları. Təbii landşaftlar və onların təsnifatı: şöbə, sinif, (yarımsinif ),tip, (yarımtip), cins, növ) Antropogen landşaftlar. Biosferin ekologiyası.

Azərbaycan ərazisində formalaşan təbii və antropogen lanfşaftlar. Təbiətin mühafizə olunan hissələri: yasaqlıq, qoruq və milli parklar. Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılması (ölkə, vilayət, yarımvilayət, rayon). Təbii vilayət və fiziki-coğrafi rayonların ümumi xarakteristikası.

## IX Dünyanın siyasi xəritəsi və əhalisi

Keçmiş və müasir sivilizasiyalar. Siyasi xəritədə baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri. Tarixi və müasir regionlar. Ölkələrin coğrafi və geosiyasi mövqeyi. Türkdilli xalqların sivilizasiyaları. Azərbaycandakı qədim sivilizasiyalar. Dünya ölkələrinin sahəsinə, əhalisinin sayına, iqtisadi, siyasi, fiziki-coğrafi mövqeyinə, idarəetmə formasına, inzibati-ərazi quruluşuna, sosial-iqtisadi inkişaf səviyyəsinə görə təsnifatı. İnkişaf etmiş ölkələr (İEÖ), inkişaf etməkdə olan ölkələr (İEOÖ) və yeni sənayeləşmiş ölkələr (YSÖ). İnsan inkişaf əmsalına və ya indeksinə görə ölkələrin təsnifatı. Beynəlxalq təşkilatlar (sahəvi və regonal). Siyasi və iqtisadi inteqrasiya.

Yer kürəsinin insanlar tərəfindən mənimsənilməsi. İqlim və relyef şəraitindən asılı olaraq əhalinin yerləşməsi. Ekstremal təbii şəraitə malik olan ərazilər. Dünya əhalisi. Dünya əhalisinin təbii artımı və onun tipləri. Mexaniki artim. Demoqrafik keçid mərhələləri. Demoqrafik böhran, partlayış, demoqrafik siyasət. Əhalinin miqrasiyası və onun səbəbləri. Assimilyasiya. Etnos və etnogenez. Əhalinin irq, cins, yaş, din, dil mənsubiyyəti. Əhalinin milli tərkibi. Dil ailələri və dil qrupları. Türk xalqları və onların məskunlaşması.

Əmək ehtiyatları (əmək qabiliyyətli insanlar). İqtisadi cəhətdən fəal əhali. Əhalinin həyat səviyyəsi, məşğulluğu, işsizlik problemləri. Əhali sıxlığı. Kənd və şəhər məskunlaşma formaları. Şəhərlər və şəhər aqlomerasiyaları, peyk şəhərlər, meqapolislər, urbanizasiya, yalançı urbanizasiya, suburbanizasiya. Urbanizasiyalaşma nəticəsində mövcud olan problemlər. Türkdilli dövlətlərin əhalisi. Azərbaycanın əhalisi. Mövzulara uyğun çalışmalar.

## X Təbii ehtiyatlar

Təbii ehtiyatlar və onların müxtəlif xüsusiyyətlərinə görə qruplaşdırılması. Mineral, torpaq, iqlim, meşə, rekreasiya, şirin və duzlu sular, dünya okeanın müxtəlif növ sərvətləri. Təbii ehtiyatların və faydalı qazıntı yataqlarının region və ölkələr üzrə paylanması. Ölkələrin təbi ehtiyatlarının müxtəlif üsullarla qiymətləndirilməsi. Azərbaycan Respublikasında mövcud olan təbi sərvətlər və onların mənimsənilməsi. Türk xalqlarınn yaşadığı ərazilərdə mövcud olan təbii ehtiyatlar.

**XI Dünya iqtisadiyyatı**

İnsanların təbiətə təsiri nəticəsində formalaşan təsərrüfat. İqtisadi prosesin təşkil edilməsi. Təbii resurslar. İnsan resursları. İqtisadi prosesi həyata keçirmək üçün kapital resursları. Təsərrüfatın sahə və ərazi strukturu. Dünya təsərrüfatının formalaşması, inkişafı, yerləşmə prinsipi. İstehsal və istehlak. Beynəlxalq coğrafi əmək bölgüsü (ixtisaslaşma). Beynəlxalq iqtisadi inteqrasiya və onun formaları. Elmi texniki inqlab (ETİ) və onun tərkibi, xüsusiyyətləri, əlamətləri. ETİ-nin dünya təsərüfatının formalaşmasında rolu. Texnoparklar, texnopolislər. İdxal, ixrac, reeksport.

İstehsalın təşkil edilmə formaları: koperasiya, təmərküzləşmə, kombinələşmə, məhsulun maya dəyəri, alternativ dəyər və seçim, son həd xərc, son həd fayda. Transmilli banklar, şirkətlər, holdinqlər, korporasiyalar. Tələb-təklif, bazar iqtisadiyyatı. Dövlət və özəl şirkətlər. Mülkiyyət formaları. İqtisadi inkişaf yolları. Müxtəlif növ iqtisadi modellər. İqtisadiyyatın davamlı inkişafı. Ümumi daxili məhsul (ÜDM), ümumi milli məhsul (ÜMM). İnvestisiya, lizinq, kredit, sığorta və s.

Azərbaycanın iqtisadiyatının formalaşması və inkişaf mərhələləri.

**XII Dünya sənayesinin coğrafiyası**

Sənaye sahələri və onların yerləşmə prinsipləri. Hasilat və emal sənayesi. Hasilat sənayesinin yaranması. Yüngül və ağır sənaye. Yanacaq-energetika kompleksi. Şərti yanacaq vahidi. Elektroenergetika, müxtəlif növ ekektrik stansiyaları, vahid enerji mərkəzi, alternativ enerji mənbələri və müasir dövrdə bu mənbələrin istifadəsi. Azərbaycan Respublikasında yanacaq-energetika kompleksi. Metallurgiya, maşınqayırma, kimya, meşə, yüngül, yeyinti sənayesi sahələri. Azərbaycan Respublikasının sənayesi və iqtisadi-coğrafi rayonları.

**XIII Dünyanın kənd təsərrüfatı coğrafiyası**

Kənd təsərrüfatının inkişafına səbəb olan amillər. Ekstensiv və intensiv kənd təsərrüfatı. Torpaq fondu. Torpaq kadastrı. Kənd təsərrüfatı sahələrinin yerləşmə prinsipləri. Dəmyə və suvarma əkinçiliyi. Yazlıq və payızlıq əkinçilik. Kənd təsərrüfatının əmtəəlik və istehlak tipləri. Yaşıl (biotexnoloji) inqlab. Aqrobiznes. Geni modifikasiya olnmuş (GMO) və orqanik məhsullar.

Heyvandarlıq və bitkiçiliyin strukturu, yerləşməsi. Dünya ölkələrinin kənd təsərrüfatı. Akvakultur və marikultur təsərrüfat anlayışları. Digər metodlarla yetişdirilən bitki və heyvanlar.

Azərbaycanda kənd təsərrüfatının coğrafiyası. İxtisaslaşma. Kənd təsərrüfatı məhsullarının emali. Yüngül və yeyinti sənayesi. İqtisadi-coğrafi rayonlar.

## XIV Dünya nəqliyyatı və iqtisadi əlaqələr

Dünya nəqliyyatının növləri və onun inkişafına təsir edən əsas amillər. Dünyanın əsas nəqliyyat yolları. Daşınmanın mahiyyəti və daşınma istiqamətləri. Okean sularında daşınma. Gəmiçilik kanalları və ən çox istifadə edilən su obyektləri. Beynəlxalq yük və sərnişindaşıma. Liman şəhərləri. Azərbaycan Respublikasının nəqliyyatı.

Beynəlxalq iqtisadi əlaqələr və onun tərkib hissəsi. Ticarət balansı, "Azad iqtisadi zona" Azərbaycanın dünya ölkələri və beynəlxalq təşkilatlarla iqtiadi əlaqələri. Azərbaycan Respublikasının idxal və ixracı.

Qeyri-istehsal (xidmət) sahələri. Dünyanın güclü maliyə mərkəzləri. Turizm kompleksi. Dünyanın əsas aparıcı turizm ölkələri, Azərbaycan Respublikasında xidmət sahələri. Mövzularla bağlı çalışmalar.

## XVI Dünyanın qlobal problemləri

Dünyanın münaqişə zonaları. "Qaynar nöqtələr", sülh problemi. Ətraf mühitin ekoloji problemləri. Qlobal ekoloji problemlərin həllinə ölkə və təşkilatların təsiri. Ekoloji monotorinqin aparılması. Ekoloji siyasət. Radioaktiv çirklənmə. Demoqrafik problem. Ərazi problemləri və onun həlli yolları. Qida təhlükəsizliyi. Əhalinin alıcılıq qabiliyyəti, gəlirləri. İstehlak səbəti.

Səhralaşma və şoranlaşma problemi, içməli su, tullantı, enerji problemi və həlli yolları. Dünya okeanı və kosmosdan istifadə problemi. Azərbaycan Respublikasındakı ekoloji problemlər və onun həlli yolları. Lokal, regional və qlobal problemlər. Coğrafi proqnoz.

Xəritə, tədqiqiq etmə, qrafik təsvir vasitələri ilə işləmək bacarıqları. Şəkilləri, aerofotoşəkilləri, statistikaları, qrafikləri, oxumaq, təhlil etmək eyni zamanda şərh etmək bacarıqları.

**XVII Beynəlxalq coğrafiya proqramı**

İqlim və iqlim dəyişikliyi, təbii fəlakətlər və onların idarə edilməsi, resurslar və resursların idarə edilməsi, ekoloji coğrafiya və dayanıqlı inkişaf, relyef formaları, landşaftlar və torpaqdan istifadə, kənd təsərrüfatı coğrafiyası və ərzaq problemləri, əhali və əhalinin yenilənməsi, iqtisadi coğrafiya və qloballaşma, inkişaf coğrafiyası və məkan bərabərsizliyi, şəhər coğrafiyası, şəhərsalma və şəhərlərin planlanması və yenidən qurulması, turizm və turizmin idarə edilməsi, mədəniyyət coğrafiyası və regional fərqlər.

***Əsas ədəbiyyat siyahısı***:

**1.** E.K.Əlizadə, N.S.Seyfullayev, İ.F.Aktoprak,Y.Ə.Şabanova – Coğrafiya 6-cı sinif

**2**. Y.Ə.Qəribov, N.S.Seyfullayeva, Ş.Y.Hümbətova, Y.Ə.Şabanova, T.M.İsmayılova – Coğrafiya 7-ci sinif

**3**. Z.N.Eminov, Q.M.Səmədov, R.A.Əliyeva – Coğrafiya 8-ci sinif

**4.** E.K.Əlizadə, N.S. Seyfullayev, İ.F.Aktoprak, Y.Ə.Şabanova – Coğrafiya 9-cu sinif

**5**. Y.Ə.Qəribov, O.K.Alxasov, Ş.H.Hüseynli, M.H.Babayeva – Coğrafiya 10-cu sinif

**6**. N.S.Seyfullayeva Z.İmrani, Y.Ə. Şabanova Coğrafiya 11-ci sinif

**7**. Atlas və xəritələr

***Əlavə ədəbiyyat siyahısı:***

**1**. L.P.Şubayev – Ümumi Yerşünaslıq, Bakı-1986

**2**. M.A.Müseyibov, B.A.Budaqov, N.Ş.Şirinov – Ümumi Geomorfologiya, Bakı-2012

**3**. M.A.Müseyibov, M.Çobanzadə – Qitələrin fiziki coğrafiyası, Bakı-1973

**4**. M.A.Müseyibov – Azərbaycanın fiziki coğrafiyası, Bakı-1998

**5**. R.X.Priyev – Kartoqrafiya, Bakı-2015

**6**. M.Süleymanov, İ. Əliyeva – Landşaftşünaslığın əsasları, Bakı-1998

**7**. Ş.G.Həsənov, Q.Ş.Məmmədov, S.B.Məmmədov, Y.Q.Əliyev – İzahlı Ensklopedik coğrafiya terminlər lüğəti, Bakı-2005.

8. V.P.Maksakovski – Dünyanın iqtisadi və sosial coğrafiyası – 10-cu sinif, Moskva-2009 (Azərbaycan dilinə tərcümə olunmuş variantı)

9. Beynəlxalq coğrafi ədəbiyyatlar: Nelson Thornes - Geography, An Integrated Approach - David Waugh. Oxford IB Diploma Geography, Cambridge Geography IGCSE, Beynəlxalq Coğrafiya Olimpiadasına hazırlaşmaq üçün dərs vəsaiti – I hissə, Beynəlxalq Coğrafiya Olimpiadasına hazırlaşmaq üçün testlər toplusu